***ULU ÖNDƏRIN ŞAH ƏSƏRİ***

*ƏSRIN KONTRAKTI, möcüzəyə bax!*
*15 it keçsə də, tarixi gündən.*
*Axan o neftdən əl-üzünə yax,*
*Getməsln, qoy, ətri əllərimizdən!*

*Çoxu inanmırdı. inanmırdılar,*
*Kimsə qol cəkməyər tarixı akta.*
*Ancaq ki, onları inandırdılar*
*Hamı imza atdı o kontrakta.*

*Ümummilli lider, Ulu öndərim*
*Çoxunun arzusun gözündə qoydu.*
*Nankor qonşumuzu, yağı düşməni*
*Bu hazır işlərdən kənara qovdu,*

*İşlər genişlənir, dövlətlər artır,*
*Bu, hörmət gətirir Baş komandana!*
*Işlərin içində çox işlər yatır,*
*Bu, şöhrət gətirir Azərbaycana!*

*Çətin zəmanədə yaşayırıq biz,*
*Düşmənlər hər yandan bir tələ qurur*
*Bu gün eşidilmir, o haqq səsimiz*
*Böhtanın dalında neçə güc durur.*

*Əsrin kontraktı, əsrlər yaşa.*
*Sən Ulu öndərin şah əsərisən.*
*Şöhrətin iilərcə hey aşıb-daşa,*
*Çünki xalqım üçün sən  möcüzəsən.*

*Belə bir tarixi yaradanların*
*Adları tarixdə yaşayacaqdır.*
*Bunu zəhmətilə yaşadanların*
*Tanrı da başını ucaldacaqdır,*

*Xeyrli, ruzili olsun hər anın,*
*Ülfət də bununla öyünəcəkdir.*
*Varı, sərvətisən Azərbaycanın,*
*Qəlbimiz qürurla döyünəcəkdir.*

***Ülfət Ağayeva***

***Vışka. - 2009. -18sentyabr. S.9.***